# Davamlı sülh insan hüquqlarının səmərəli təmininə xidmət edir



**Elmira SÜLEYMANOVA,**
**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman).**

Sülh bəşəri rəmzə çevrilərək insanların arzu etdiyi və can atdığı bütün müsbət keyfiyyətləri özündə birləşdirən bir məfhumdur. Beynəlxalq Sülh Günü BMT tərəfindən 1981-ci ildə təsis edimiş və ilk sülh günü 1981-ci ilin sentyabrında qeyd olunmuşdur. Elə o vaxtdan etibarən də Beynəlxalq Sülh Günü sentyabr ayının hər 3-cü çərşənbə axşamı qeyd edilirdi. Lakin 2002-ci ildə BMT Sülh günü üçün 21 sentyabr tarixini dəqiq tarix kimi müəyyənləşdirmiş və bu tarixi ümumdünya atəşkəs günü elan etmişdir.

Hazırda hər il Beynəlxalq Sülh Günü BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında yerləşən "Sülh Zəngi"nin çalınması ilə başlayır. Yaponiya Parlamentinin hədiyyəsi olan bu zəngin üzərində "Yaşasın Mütləq Dünya Sülhü" sözləri yazılmışdır. Elə 2007-ci ildə BMT-nin Baş katibi Pan Gi Mun həmin "Sülh Zəngi"ni çalaraq dünyanı bütün döyüş əməliyyatlarını, ədavəti 24 saat ərzində dayandırmağa və bir dəqiqəlik sükuta çağırmışdı.

Dünya ölkələrinin yekdil qərarı ilə əlamətdar gün kimi qəbul edilmiş Beynəlxalq Sülh Gününün əhəmiyyəti zaman keçdikcə, münaqişə ocaqları alovlandıqca, üzə çıxır. Sülh naminə aparılan fəaliyyət həyati əhəmiyyət kəsb etsə də, təəssüflər olsun ki, heç də hər yerdə qorunmur, müdafiə edilmir, dünyada milli münaqişələr daha da çoxalır, fiziki coğrafiyası genişlənir. Həqiqətən də dünyanın müxtəlif qütblərində yaşayan saysız-hesabsız insanlar üçün sülh hələ də əlçatmazdır.

Sülh günü nəinki xalqlar arasında, həmçinin ailələrdə, cəmiyyətdə, ictimaiyyətdə münasibətlərin sağlamlaşmasına, zorakılığa qarşı mübarizənin gücləndirilməsinə nail olmaq üçün bir imkandır.

Bu baxımdan hər il ənənəvi olaraq, təşəbbüsümlə elan olunan "İnsan hüquqları aylığı", "Uşaq hüquqları aylığı" ilə yanaşı, "Sülh aylığı" da əhalinin hüquqi maarifləndirilməsi işinə mühüm töhfələr verməklə, ölkəmizdə insan hüquqları sahəsində müsbət təcrübə formalaşdırır.

21 avqust - 21 sentyabr tarixlərində elan olunan, ənənəvi xarakter daşıyan "Sülh aylığı" da əhalinin müxtəlif qrupları arasında hüquq mədəniyyətinin, hüquq düşüncəsinin inkişaf etdirilməsi məqsədini daşımaqla universal dəyərlərin, insan hüquqlarının təbliğinə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar, sülhsevər xarici siyasət kursunun əsas leytmotivini dünyada ərazi bütövlüyü prinsiplərinə sadiqlik, siyasi müstəqilliyə qarşı güc tətbiq etmənin yolverilməzliyi, terrorçuluğun bütün təzahürlərinə qarşı barışmazlıq, dinlərarası dialoqun, multikulturalizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, ölkəmizin ərazisində xarici ölkələrin hərbi qüvvələrinin digər ölkələrin təhlükəsizliyinə təhdid vasitəsi kimi istifadə edilməsinin qeyri-mümkünlüyü, insan hüquq və azadlıqlarına hörmət kimi sülhsevər prinsipləri təşkil edir.

Tarixi İpək yolunda yerləşən ölkəmiz müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmış Azərbaycanda bu il ölkə başçısının müvafiq Sərəncamları ilə "Multikulturalizm ili" elan edilmiş və bununla əlaqədar tədbirlər planı təsdiqlənmişdir. Təbii ki, bu qərar Azərbaycanda tolerantlığa, birgəyaşama dəyərlərinə olan münasibətin təzahürü kimi xalqımız tərəfindən də yüksək qiymətləndirilir.

Azərbaycan xalqının Beynəlxalq Sülh Gününü qeyd etməsi isə təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllindən keçir. Beynəlxalq vasitəçilərin apardıqları sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl yaratmaqdadır. Ölkə başçısının istər beynəlxalq tribunalardan, istərsə də doğma yurd-yuvasını itirmiş bir milyondan çox qaçqın və məcburi köçkünlərin icmaları ilə hər dəfə görüşəndə səsləndirdiyi və bəyan etdiyi kimi, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qoşulan respublikamız münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə təsdiqləsə də, təcavüzkar Ermənistan tamamilə bunun əksini nümayiş etdirir. 1994-cü ildən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə münaqişə tərəfləri arasında atəşkəs rejimi elan olunsa da, buna ermənilər tərəfindən əməl edilmir. Son zamanlar, xüsusilə də bu ilin aprel ayında cəbhə bölgəsində baş verən hadisələr, təxribatlar, mülki əhaliyə qarşı silahlı hücumlar ermənilərin təcavüzkar və sülhə yönəlməyən siyasət yürütdüklərini bir daha sübut edir.

Ölkə başçısı cənab İlham Əliyevin siyasəti nəticəsində ölkəmizdə insan hüquqlarının davamlı inkişafı və təmin olunması istiqamətində müvafiq qanunvericilik aktları qəbul olunur, zəruri tədbirlər həyata keçirilir. Ölkəmiz günü-gündən inkişaf edir, beynəlxalq aləmdə nüfuzu artır. Həyata keçirilən tədbirlər və islahatlar, idarəetmənin təkmilləşməsi insanların öz hüquqlarının həyata keçirməsi üçün böyük imkanlar yaradır. Bu səbəbdən də ölkəmizə beynəlxalq aləmin marağı daha da artır və ölkəmizdə bir sıra beynəlxalq tədbirlər uğurla həyata keçirilir.

Respublikamızda keçirilən Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, Beynəlxalq Şahmat Olimpiadası, I Avropa Oyunları, "Formula-1 Avropa Qran-Pri" yarışları, Beynəlxalq Humanitar Forumlar, habelə Davos İqtisadi Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Avropa Şurasına üzv Ölkələrin Mədəniyyət Nazirlərinin Toplantısı, İslam Əməkdaşlığı Təşkilatına üzv Ölkələrin Nazirlərinin Toplantısı, Dünya Dinləri Liderlərinin Zirvə görüşləri əlamətdar hadisə, uğurlu ölkə təcrübəsi formalaşdırmaqla yanaşı, sivilizasiyalar arası dialoqa, regionda əldə edilən irəliləyişlərə dəstək, gələcək strateji hədəflərə qlobal yanaşma üçün mühüm töhfədir.

Tarixən Olimpiya Oyunları sülhün əsas simvollarından biri hesab olunub və bu gün də bu belədir. Heç də təsadüfi deyildir ki, tarixin müxtəlif dönəmlərində məhz olimpiya oyunlarının keçirildiyi müddətdə bütün müharibələr dayandırılırdı. Ötən il I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi həqiqətən də respublikamızın sülh və sabitlik məkanı olduğunu bütün dünyaya nümayiş etdirmiş oldu. Qitənin ən böyük idman yarışı da insan hüquqlarına hörmət, ədalət, sülh və tolerantlıq prinsipləri əsasında keçirilmişdir.

Qeyd edilənlər bir daha respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.

Ötən illərdə olduğu kimi, bu ildə ölkəmiz mötəbər tədbirlərə - IV Qlobal Bakı Forumuna və BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna ev sahibliyi etmişdir. Yeri gəlmişkən, bu günlərdə ölkəmizdə V Bakı Beynəlxalq Humanitar Forumu keçiriləcəkdir.

Xüsusilə vurğulanmalıdır ki, Azərbaycanda həyata keçirilən siyasətin, multikultural dəyərlərə verilən böyük önəmin nəticəsidir ki, 2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə məhz Bakıda keçirilməsi barədə qərar qəbul edilmişdir.

"İnklüziv cəmiyyətlərdə birgə yaşama: çağırış və məqsəd" devizi altında keçirilən BMT-nin Sivilzasiyalar Alyansının 7-ci Qlobal Forumunda dünyanın 147 ölkəsini təmsil edən 4000-dən artıq nümayəndə öz düşüncələri ilə yanaşı ölkələrinin, cəmiyyətlərinin Azərbaycan nümunəsi ilə bağlı mövqelərini də bildirdilər. Dövlət, hökumət və parlament başçıları, nazirlər, rəsmi şəxslər, beynəlxalq təşkilatların rəhbər heyətləri, dini liderlər, müxtəlif sahələr üzrə ekspertlər, qeyri-hökumət və vətəndaş cəmiyyəti, biznes dairələri və KİV nümayəndələri Forum çərçivəsində keçirilən 45 iclasda, 86 mədəni tədbirdə əsas mövzularla yanaşı daim Azərbaycan modelini də müzakirə və təqdir etdilər.

7-ci Qlobal Forumun açılış mərasimində multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldıran ölkə başçısı açılış nitqində demişdir: "Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. Multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb."

BMT-nin bir sıra sənədlərində də, genosid ümumi beynəlxalq hüquq normalarını pozan bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayət kimi dəyərləndirilir. BMT Baş Məclisinin 11 dekabr 1946-cı il tarixli 96 (1) saylı qətnaməsində genosidin beynəlxalq hüquq normalarını pozan, BMT-nin ruhuna və məqsədlərinə zidd cinayət olduğu elan edilir.

Genosid cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur.

Dinc əhalinin vəhşicəsinə kütləvi qırğını insanlığa qarşı ən ağır cinayətlərdən biri olmaqla, Xocalı soyqırımı XX əsrin Xatın, Sonqmi, Liditse, Babiy Yar kimi dəhşətli faciələrin sırasına düşdü.

Ulu öndər Heydər Əliyev Xocalı soyqırımının əsl mahiyyəti açıqlamış və 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisində Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilmişdir.

Ölkə səviyyəsində bu siyasi kurs davam etdirilməklə yanaşı, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bu münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin, zəbt edilmiş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin çıxarılmasının zəruriliyini vurğulamaqla yanaşı, Xocalı soyqırımının tanınmasını qətiyyətlə tələb edir.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl işlər görülür. Eyni zamanda, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın gerçəkləşdirdiyi "Xocalıya Ədalət!" kampaniyası bu gün Xocalı hadisələri barədə dünya ictimaiyyətini məlumatlandırmaq və beynəlxalq-hüquqi tanınmasına nail olmaq məqsədilə Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerika ölkələri tərəfindən Xocalı soyqırımının tanınmasını təmin etməkdədir. BMT Baş Məclisinin 69-cu sessiyasında "Soyqırımı qurbanlarının xatirəsinin anılması və soyqırımı cinayətinin qarşısının alınması üzrə beynəlxalq gün" adlı qətnamə qəbul edilib.

Təəssüf ki, bu gün uzun sürən sülh danışıqları, nüfuzlu beynəlxalq təşkilatların BMT, Avropa Şurası, ATƏT-in Minsk qrupu və digər qurumların səyləri, problemin həllində vasitəçilik missiyası heç bir nəticə vermir.

BMT Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874, 884 saylı qətnamələri, habelə Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan işğal olunmuş Dağlıq Qarabağla bağlı münaqişənin həll edilməsi, regionda sülh və təhlükəsizliyə təhlükə yaradan bütün hərbi əməliyyatların dayandırılması, atəşkəsin təmin olunması, həmçinin bütün işğalçı erməni qüvvələrinin Azərbaycan torpaqlarından şərtsiz çıxarılmasını nəzərdə tutan BMT Baş Assambleyasının 14 mart 2008-ci il tarixli qətnaməsi, Avropa Şurası, ATƏT tərəfindən qəbul edilmiş beynəlxalq hüquqi sənədlər hələ də icra olunmur. Postsovet məkanında olan heç bir başqa münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası çoxsaylı qətnamə qəbul etməmişdir. Bu isə nüfuzlu beynəlxalq təşkilatların sülhün və təhlükəsizliyin bərpası istiqamətində apardıqları siyasətə kölgə salır, onlara inamı azaldır.

Beynəlxalq arenada münaqişələrin həll olunması üçün ölkəmiz öz töhfəsini verməklə, sülhməramlı qüvvələrini müharibə ocaqlarında atəşkəsin, əmin-amanlığın təmin olunması üçün səfərbər etmiş, sülhə nail olmaq üçün güclü ordu formalaşdırmışdır.

Eyni zamanda haqq və ədalət hissini itirməyən dünya ictimaiyyəti, hökumətlər Azərbaycanın haqlı mövqeyini dəstəkləyir, xalqımıza qarşı törədilmiş faciələr, soyqırımı aktları dövlətlər, onların parlamentləri tərəfindən tanınır.

Azərbaycan dövləti haqq və ədalət, tolerantlıq prinsiplərinə söykənərək ölkəmizdə insan hüquqlarının təmin olunması istiqamətində davamlı olaraq strateji sənədlər qəbul edir və uğurla həyata keçirir.

Məhz insan hüquqları və insani dəyərlərin kontekstində dayanan sülh məfhumu bu gün bəşəriyyətin həllini gözləyən ən vacib problemlərindən biridir. Yaşadığımız mürəkkəb sosial-siyasi hadisələrlə müşayiət olunan dövrdə qarşımızda duran ən mühüm məqsəd istər ailədə, istərsə də cəmiyyətdə, müxtəlif etnik qruplar, dövlətlər, millətlər arasında ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqdır. Başqa sözlə, hər zaman insanlar arasında sülh dəyərlərini yaymaq, sülh mədəniyyətini təbliğ etmək zərurəti vardır.

Bu baxımdan başa vurduğumuz "Sülh aylığı" insanlar arasında hüquq mədəniyyəti ilə yanaşı, sülh mədəniyyətini təbliğ etməklə qarşımızda duran Dayanıqlı İnkişaf Məqsədlərinə xidmət edir.

Aylıq çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən görülən işlərlə bağlı arayışlar hazırlanaraq Müvəkkilə təqdim edilmiş və onlar təhlil edilərək ümumiləşdirilmişdir. Hüquq-mühafizə orqanları, nazirliklər, komitələr tərəfindən aylıq çərçivəsində həyata keçirilən tədbirlər planı, demək olar ki, əhalinin bütün qruplarını əhatə etmiş və fəal iştirakları ilə yadda qalmışdır.

"Sülh aylığı" çərçivəsində müxtəlif qurumlara ünvanlanmış müraciətlər respublikamızın hər bir rayon və şəhərlərində fəallıqla həyata keçirilmişdir.

Bu Aylıq çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən Ədliyyə Akademiyasında, cəzaçəkmə müəssisələrində insan hüquqlarının qorunması, o cümlədən əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, sülh və dözümlülüyün təbliği istiqamətində "İnsanların sülh şəraitində yaşamaq hüququ" və bu kimi müxtəlif tədbirlər təşkil edilmişdir. Bundan başqa, sülh və dözümlülüyün təbliği məsələlərində əhəmiyyətli vasitələrdən biri olan ictimai iştirakçılıq mexanizminə diqqət yetirilərək, Ədliyyə Nazirliyi tərəfindən "İctimai iştirakçılıqla bağlı sənədlər toplusu" dərc edilmiş, bir sıra qurumlara və vətəndaş cəmiyyəti təşkilatlarına təqdim olunmuşdur.

Aylıq çərçivəsində Daxili İşlər Nazirliyi tərəfindən peşə hazırlığı məşğələlərində şəxsi heyətə "Beynəlxalq sülh günü"nün yaranma tarixi və əhəmiyyəti, "İnsan hüquqları haqqında ümumi bəyannamə", "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya", "İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) haqqında" Konstitusiya qanunu, "İnsan hüquqları və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası", "Hər hansı bir formada tutulan və həbs olunan şəxslərin müdafiəsinin Əsas Prinspləri" haqqında ətraflı məlumat verilmişdir.

Müdafiə Nazirliyi tərəfindən Aylıq çərçivəsində Beynəlxalq Sülh Gününün əhəmiyyətinin və Azərbaycan dövlətinin sülhsevər siyasətinin, insan hüquq və azadlıqlarının müdafiəsinə xüsusi önəm verilməsi şəxsi heyətə çatdırılmış, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində "Hüquqi düşüncələr, vətənpərvərlik, milli-mənəvi dəyərlər, sülh və insan hüquqları", "Xalqımızın milli-mənəvi dəyərləri", "İnsan hüquq və azadlıqları", "İnsan haqları" və "Beynəlxalq humanitar hüquq" mövzusunda söhbətlər aparılmış, ayrı-seçkiliyə yolverilməzliyin, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə hərbi qulluqçular arasında tematik gecə keçirilmişdir.

Bununla yanaşı, Müdafiə Nazirliyinin mətbu orqanları olan "Azərbaycan Ordusu" qəzetində "Sülh insana xoşbəxtlik gətirir" və "Hərbi bilik" jurnalında "İnsan hüquq və azadlıqları" mövzusunda yazılar dərc edilmişdir.

Aylıq çərçivəsində İqtisadiyyat Nazirliyi Ombudsman Aparatının Gəncə Regional Mərkəzinin birgə təşkilatçılığı ilə Gəncədə "Sülh və insan hüquqları" mövzusunda seminar təşkil edilmişdir. Nazirliyin Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin təşkilatçılığı, aidiyyəti dövlət qurumlarının, ictimai təşkilatların və KİV nümayəndələrinin iştirakı ilə "Hər bir istehlakçı öz hüquqlarını bilməli və tələb etməlidir" mövzusunda Konfrans keçirilmişdir.

Baş Prokurorluq tərəfindən verilən tapşırıq əsasında, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə, Azərbaycan Respublikası Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi, Bakı şəhər, bütün rayon (şəhər) və ərazi hərbi prokurorluq orqanlarında sülh və insan hüquqlarını təbliğ edən mövzular hər həftənin şənbə günləri keçirilən tədris məşğələlərində müzakirə edilmiş, "Sülh aylığı" çərçivəsində zəruri işlər görülmüşdür.

Dövlət Təhlükəsizlik Xidmətinin Heydər Əliyev adına Akademiyasında tədris olunan "İnsan hüquqları", eləcə də "Konstitusiya hüququ", "Cinayət hüququ", "Cinayət-prosesual hüquq", "Cəza-icra hüququ" və s. hüquq fənləri müstəvisində kursant və dinləyicilər, eləcə də əməliyyat-döyüş hazırlığı çərçivəsində məşğələlərə cəlb olunan əməkdaşlar sülhün təmin edilməsi, insan hüquqlarının müdafiəsi, habelə sülh və insanlıq əleyhinə cinayətlərin qarşısının alınması sahəsində qanunvericilik aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı bir çox beynəlxalq konvensiyalarla tanış edilmişdir. Daha sonra, "Əsas insan və vətəndaş hüquqları və azadlıqları", "İnsan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya təminatı", "İnsan hüquqları ilə bağlı beynəlxalq hüquqi aktların Azərbaycan Respublikasının qanunvericilik sistemində yeri" və s. mövzularda mühazirələr oxunmuş, sülh və insan hüquqlarının təbliği istiqamətdə maarifləndirmə işləri aparılmışdır.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Milli İncəsənət Muzeyində "Yerusəlimdən sevgi ilə" adlı konsert proqramı, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində "Musiqi sülhə çağırır", Azərbaycan İstiqlal Muzeyində "İnsan haqları: humanizm və maarifçilik", Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzində "Sülh və insan hüquqları" mövzusunda tədbirlər keçirilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin tabeliyində Xüsusi Qayğıya Ehtiyacı Olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsində 21 sentyabr - Beynəlxalq Sülh Gününə həsr edilmiş tədbir keçirilmişdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ölkə əhalisinin hüquqlarının təminatı, vətəndaş cəmiyyətinin maarifləndirilməsi istiqamətində bir sıra ekoloji təbliğat xarakterli seminar-məşğələlər, "dəyirmi masa"lar, görüşlər keçirilmiş, maarifləndirici nəşrlər paylanılmışdır.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən "İnsan hüquqlarının təmin edilməsində informasiya təhlükəsizliyinin rolu", "Sülh və insan hüquq və azadlıqlarının qorunması", "İnsan hüquqlarının qorunması bəşəri sülhün təmini vasitəsi kimi" və "İnsan hüquqlarına hörmət və sülh mədəniyyətinin təbliği dinindən, irqindən asılı olmayaraq insanlar arasında xeyirxah əməkdaşlığın vasitəsi kimi" mövzularda tədbirlər keçirilmişdir.

Vergilər Nazirliyi tərəfindən keçirilən görüşlərdə əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği barədə iştirakçılara ətraflı məlumat verilmişdir. Eyni zamanda, aylıq çərçivəsində "Vergilər" qəzetinin 24.08.2016-cı il tarixli 33 (824) nömrəli buraxılışında "Vergi ödəyicilərinin hüquqları dövlət siyasətinin prioritetlərindəndir" başlıqlı məqalə dərc edilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tabeçiliyində olan Uşaq və Ailələrə Dəstək Mərkəzlərində (UADM) "Sülh aylığı" çərçivəsində regionlarda tədbirlər keçirilmişdir. Qəbələdə, Zərdabda "Qoy həmişə sülh olsun", "Uşaqlar sülhə çağırır" adlı maarifləndirici tədbir, Saatlıda "Sülhün rəsmi" adlı rəsm sərgi keçirilmiş, Zaqatala rayonunda "Gənc nəsillə birgə yaşayış və sülh anlayışı" adlı maarifləndirici görüş və "Sülh uşaqların gözü ilə" adlı sərgi təşkil olunmuşdur. Həmçinin, Ağdam UADM də Mərkəz xidmətlərindən bəhrələnən 12 uşağın iştirakı ilə "Sülh dərsi" keçirilmiş, "Qadınlar və sakit dünya" adlı "dəyirmi masa" keçirilmişdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən bir sıra şəhər və rayonlarda, "Azərbaycan multikulturalizmi sülh və sabitliyin təminatçısı kimi", "İslamda sülh və tolerantlıq", "Bəşəri sülhə aparan yol-millətlərarası və dinlərarası etimad", "Dinimizdə sülhün mahiyyəti", "İslamda sülh və vəhdət missiyası", "Sülh-azadlıq, bərabərlik və ədalətdir" və s. bu kimi mövzulara həsr edilmiş tədbirlər keçirilmişdir.

Milli Fəaliyyət Proqramına uyğun olaraq Komitə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə birlikdə məhkumların vicdan və dini etiqad azadlıqlarına dair maarifləndirmə işinin aparılması məqsədilə 2, 1, 4, 10, 11, 16, 8, 14, 6, 12, və 13 saylı cəzaçəkmə müəssisələrində təsdiq olunmuş plan üzrə "Azərbaycanda dövlət-din münasibətləri", "Azərbaycanda İslam ənənələri", "İslamda tövbə", "İslamda intihara münasibət", "Qeyri-ənənəvi dinlər və təriqətlər" və s. mövzularda əlavə tədbirlər keçirmişlər.

Komitə, həmçinin cari ildə Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə imzaladığı "Dini ekstremizmə qarşı mübarizəyə dair birgə keçiriləcək Tədbirlər Planı" çərçivəsində respublikanın şəhər və rayonlarının hüquq-mühafizə orqanlarının işçiləri, din xadimləri, ictimaiyyət nümayəndələrinin iştirakı ilə "Dini estremizmə qarşı mübarizə" mövzusunda müşavirələr keçirmişdir.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi "Sülh aylığı" çərçivəsində sülh və insan hüquqlarını təbliğ edən mövzulara dair Komitə tərəfindən bir sıra işlər görülmüşdür. Belə ki, Komitənin fəaliyyət istiqamətləri ilə bağlı əhalinin hüquqi maarifləndirilməsi məqsədilə istehlakçıların və sahibkarların hüquqlarının izah edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi sahəsində sorğuların cavablandırılması təmin olunmuşdur.

Dövlət Statistika Komitəsi Aparatının və Komitənin tabeliyində fəaliyyət göstərən Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin əməkdaşları üçün "Xalqların sülh hüququ haqqında" mühazirə oxunmuşdur.

Dövlət Miqrasiya Xidməti tərəfindən Bakı Regional Miqrasiya İdarəsində, Ağsu Regional Miqrasiya İdarəsində və Gəncə Regional Miqrasiya İdarəsinin əhatə etdiyi Salyan şəhərində xidmət işçilərinin və ictimaiyyətin iştirakı ilə maarifləndirmə tədbirləri keçirilmiş və həmin tədbirlər KİV-də işıqlandırılmışdır.

"Sülh aylığı" çərçivəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin, Aparatın əməkdaşlarının, Ombudsmanın Gəncə, Şəki, Quba və Cəlilabadda yerləşən və ətraf rayonları əhatə edən regional mərkəzlərinin iştirakı ilə silsilə tədbirlər Bakı, Gəncə, Lənkəran, Şəki və Mingəçevir şəhərlərində, eləcə də Qəbələ, Oğuz, Zaqatala, Qax, Göygöl, Goranboy, Cəlilabad, Masallı, Astara, Quba, Şabran və Qusar rayonlarında davam etdirilmiş və bununla bağlı mütəmadi olaraq KİV-lərə məlumat verilmişdir. Ombudsmanın nümayəndələri yerlərdə təşkil olunmuş tədbirlərdə insan hüquqlarına və sülh mədəniyyətinə dair müxtəlif mövzularda məruzələr, çıxışlar etmişlər.

Yeri gəlmişkən, Müvəkkilin təşəbbüsünə əsasən Təhsil Nazirliyi ilə birgə və AUGSŞ-nin üzvlərinin fəal iştirakı ilə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq məqsədilə ötən dövrdə 26 fevral - Xocalı faciəsinin ildönümü ərəfəsində "Biz sülh elçisiyik! Bizə qoşulun!" devizi ilə uşaqlar arasında kütləvi imzatoplama kampaniyası keçirmiş və ölkəmizin müxtəlif güşələrində yaşayan və təhsil alan 310.000-dən artıq məktəblinin, o cümlədən qaçqın və məcburi köçkün uşaqların imzalarını toplamış, imza vərəqələri BMT Baş katibinin müavini, Uşaqlar və silahlı münaqişələr üzrə xüsusi nümayəndəsinə göndərilmişdir.

Ümumilikdə Ombudsman təsisatı tərəfindən 110-dan çox bəyanat verilmiş və nüfuzlu beynəlxalq təşkilatlara ünvanlamışdır. Həmin bəyanatlarda Azərbaycan dövlətinin sülhsevər siyasət yürütdüyü, respublikamızın Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bəyan etdiyi, lakin təcavüzkar Ermənistanın BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin tələblərini kobud şəkildə pozmaqda davam etdiyi bildirilmişdir.

Eyni zamanda qeyd olunmalıdır ki, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı nəzdində fəaliyyət göstərən İnsan Hüquqları Şurasının 25-ci sessiyasının gündəliyi ilə bağlı Genosid cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair Konvensiyanın 65-ci ildönümü münasibətilə genosidin qarşısının alınmasına dair sessiyada həmin mövzu üzrə yazılı bəyanatım qurumun rəsmi sənədləri sırasına daxil edilərək internet səhifəsində yerləşdirilmiş və 250 nüsxədə çap etdirilərək iştirakçılar arasında paylanmışdır.

1997-ci ildən 100 illik tarixə malik olan Beynəlxalq Sülh Bürosunun üzvü olan, tərəfimdən fəaliyyəti dəstəklənən Azərbaycan Sülh və İnkişaf Alyansı müxtəlif dövlət orqanlarının, beynəlxalq təşkilatların, dini icmaların, QHT-lərin iştirakı ilə qarşılıqlı əməkdaşlığa əsaslanan və respublikamızda sülh hərəkatının formalaşdırılması istiqamətində əhalinin müxtəlif qruplarına (uşaqlara, gənclərə, qadınlara, ahıllara, milli azlıqlara, dini icma nümayəndələrinə) ünvanlanan fəaliyyəti ölkəmizdə müsbət təcrübə formalaşdırmaqdadır.

Hələ 1999-cu ilin may ayında Hollandiyanın Haaqa şəhərində keçirilmiş II Ümumdünya Sülh Konqresində ölkəmiz 10 uşaq da daxil olmaqla 100 nəfərlik nümayəndə heyəti ilə təmsil olunmuşdur. Bu isə öz növbəsində dünyada sülh hərəkatı tarixinə töhfəsini verməklə yanaşı, həmin konqresdə iştirak etmiş Azərbaycan Sülh və İnkişaf Alyansı üzvlərinin də fəaliyyətinin güclənməsinə, ölkəmizin mövqeyinin dünya ictimaiyyətinə açıqlanmasına geniş imkanlar yaratdı.

Bununla yanaşı, insanların mənəvi sərvətləri içərisində dinin fərqliliyi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə, əməkdaşlığa dəvət etmişdir. Biz indi də bunun şahidiyik. Getdikcə daha çox din adamı dinlərarası dialoqun zəruriliyini dərk edir və dəstəkləyir. Bu isə sülh, dözümlülük, tolerantlıq və xeyirxahlıq naminə əməkdaşlıq tələb edir.

Ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə desək: "Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir...

O təkcə dinlərin bir-birinə yaxınlaşması deyil, onların bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir".

Dözümlülük qarşılıqlı anlaşma və ehtiram üçün əsas təməl rolunu oynayır. Bu, dünya mədəniyyətlərinin zəngin fərqliliyin çiçəklənməsinə şərait yaradan yaşayış tərzidir. 1995-ci il tarixli UNESCO-nun Dözümlülük haqqında Prinsiplər Bəyannaməsində deyildiyi kimi, dözümlülük "sülhü mümkün edən müharibə mədəniyyətinin sülh mədəniyyəti ilə əvəz olunmasını təbliğ edir".

Bölgədə sülhün və təhlükəsizliyin bərqərar olmasında maraqlı olmayan müxtəlif dağıdıcı qüvvələr milli və dini ədavət toxumları səpir, qarşıdurma ocaqlarının saxlanılması üçün hər cür çirkin vasitələrə əl atırlar. Qafqazda sülhə və əmin-amanlığa təhlükə törədən bütün əməllərin qarşısının alınması hamımızdan sülh naminə daha sıx əməkdaşlıq tələb edir.

Bu günlərdə Bişkekdə keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibli iclasında Ermənistan prezidenti Serj Sarkisyan bu ilin aprelində cəbhə bölgəsində baş vermiş hadisələrlə bağlı Azərbaycandan şikayət xarakterli çıxış edib. O, bu hadisələr zamanı Azərbaycanın guya atəşkəs rejimini pozduğunu deyib. Ölkə başçımız cənab İlham Əliyev bu yalana tutarlı cavab verib: "Erməni tərəfi bu şikayətlərlə artıq bütün beynəlxalq təşkilatları bezdirib. Təsəvvür edirsinizmi, vəziyyət kifayət qədər paradoksaldır: Ermənistan suveren dövlətin ərazisini işğal edir, onun ərazi bütövlüyünü pozur, Dağlıq Qarabağdan və ona bitişik yeddi rayondan yerli azərbaycanlı əhalini qovur, bir milyon insanı qaçqın və məcburi köçkün vəziyyətinə salır, işğal edilmiş ərazilərdə hər şeyi, o cümlədən tarixi, dini, mədəni abidələrimizi, bütün infrastrukturu dağıdır, - bu, ATƏT-in iki missiyasının məruzələri ilə təsdiq edilib, - sonra isə 20 ildən artıq müddətdə danışıqlar prosesini imitasiya etməklə məşğul olur. Eyni zamanda, bu prosesin sonsuz olması üçün vaxtaşırı müxtəlif təxribatlara əl atır və onlardan biri məhz bu ilin aprelində oldu. Azərbaycanın dinc sakinlərinin beş yüzdən çox evi erməni ordusu tərəfindən artilleriya atəşinə məruz qaldı, yüzdən çox ev dağıdıldı, aralarında uşaqlar da olmaqla, təxminən on dinc vətəndaş qətlə yetirildi, həlak oldu."

Müharibə hər bir xalq üçün böyük imtahandır. Bu imtahanda Qələbə çalacağıq. Görüşdüyümüz həmsöhbətlərimizin hamısı başlıca problemimizin mənfur düşmən tərəfindən işğal olunmuş bütün torpaqlarımızın azad olunması və geri qaytarılması olduğu, bu arzuya çatacaqları günün artıq uzaqda olmadığını, bunun qarantı kimi ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevlə ordumuz və əhalimizin vəhdət təşkil edərək yüksək nizam-intizamla, mütəşəkkil, çətin anlarda bir qüvvə kimi vahid səylərini birləşdirib səfərbər olmağı bacaran xalqımızın olduğunu bildirmişlər.

Fikrimi ölkə başçısının sözləri ilə tamamlamaq istərdim: "Biz məsələnin sülh yolu ilə, siyasi yollarla öz həllini tapmasını istədiyimizi dəfələrlə bəyan etmişik. İstəyimiz odur ki, məsələ həllini tapsın. Ancaq bununla bərabər, ərazi bütövlüyümüzü istənilən yolla, o cümlədən hərbi yolla həll etmək bizim suveren hüququmuzdur". ■